*90 illiyi qarşısında*

# ŞAİR SƏRDAR ƏSƏD

## "ARALANIB GÖZÜMDƏN FİKRİMDƏ YAŞAYIRSAN"



*Qəzənfər KAZIMOV,*
*SSməkdar elm xadimi,*
*professor*

Sərdər Əsəd (Sərdar Heydər oğlu Əsədov) 9 may 1930-cu ildə Cəbrayıl rayonunun Soltanlı kəndində anadan olmuşdur.

Atası Heydər kişi mehriban və zəhmətkeş bir kənd əhli, anası Həsyə xanım təhsil görməmiş qadın idi. Heydər kişi cavanlığında igid bir oğlan olmuş, başı üstə at çapar, çapa-çapa tullanıb atın belində ayaq üstə durarmış. 20-ci illərdə Sovet hökumətinə qarşı mübarizə aparan Qaçaq Həsənin dəstəsinə qoşulmuş, nəhayət, bu hökumətin müvəqqəti olmadığını, xalqın xeyrinə çalışdığını görərək qaçaqlardan ayrılmış, kəndə – öz evinə qayıtmışdır. Lakin hökumət tərəfindən ailəlikcə Sibirə sürgün edilmişdir. Körpə övladları olduğunu nəzərə alan hökumət bir il sonra onları sürgündən azad etmişdir. Həmin körpə Sərdar idi.

Heydər kişinin Sərdardan əlavə iki qızı da var idi. Böyük qızı mənim müəlliməm olmuş, ikinci sinifdə mənə dərs demişdir.

Sərdarın ibtidai sinifləri bitirdiyi illərdə mənim atam kəndimizdəki məktəbin direktoru idi. Məktəbi onilliyə çevirmişdi. Sərdar o illəri yaxşı xatırlayır və ehtiramla danışırdı. Hətta son siniflərdə oxuduğu illərdə bir dəfə bərk əsəb pozğunluğu keçirmiş, gəlib bizim evə girərək atamın böyük şəklini görüb Sakitləşmişdi.

Sərdar orta məktəbi əla bitirib, Ağdam Müəllimlər İnstitutuna daxil olmuşdur. Buranı əla qiymətlərlə bitirdikdən az sonra V.İ.Lenin adına APİ-nin dil və ədəbiyyat fakültəsinə daxil olmuş, Ə.Dəmirçizadə, M.Rəfili kimi görkəmli dilçi və ədəbiyyatşünas alimlərdən dərs almışdır.

Atasındakı güc, qüvvət Sərdarda da var idi. 1955-ci ildə – V.İ.Lenin adına APİ-nin filologiya fakültəsinə daxil olduğum il Sərdar həmin fakültəni bitirmişdi. Sentyabrda biz dərsə başlayanda institutun divarlarına ali məktəblərarası ştanq yarışlarında Sərdar Əsədin birinci yeri tutduğu yazılıb vurulmuşdu. 25 yaşlarında sağlam, yaraşıqlı, iti baxışlı gözəl bir gənc idi.

Hələ biz ali məktəbdə oxuduğumuz ilk illərdə də Bakıda camaatın "julik" dediyi gənclər var idi, kənddən gələn uşaqlara pis baxır, döyür, cibini soyurdular. Bir dəfə gecə saat 12-də Sərdarla birlikdə tramvayla Xəlilgilə (Xəlil Rza) gedirdik. Biri bizə sataşmaq istədi. Sərdar qolunu bir balaca çırmayıb qulağının dibindən birini ilişdirdi. Tramvayın qapıları açıq idi, gədə güclə tramvaydan özünü atıb qaça bildi.

Heydər kişi bir müddət kənd dəyirmanında işlədi, elektrik dəyirmanı meydana çıxanda məktəbə köçdü, biz oxuduğumuz məktəbin həyət-bacasına, bağ-bağçasına baxar, qarovulçuluq edərdi. Deyib-gülən, xeyirxah və mərd bir kişi idi. Sərdarın qəzetlərdə dərc olunan şeirlərini kəsib cibinə qoyar, savadı olanlara oxutdurar, öyünərdi. Qabağına çıxan, ərki ötən dul arvadlara zarafatla deyərdi:

-Gəl səni alım, məndən olan şair olur.

Sərdar 1975-ci il iyun ayının 30-da vəfat etmişdir. Mən o dövrdə də təziyə məclislərində çox kədərləndim, mənimlə yaxşı münasibətdə, dostluq münasibətində idi, o dövrdə şəhərdə bir növ yolgöstərənimiz idi. Lakin indi onun övladları tərəfindən toplanmış bu qədər zəngin yaradıcılığı olduğunu gör-dükdə daha artıq təssüf hissi keçirirəm. Sərdar o zaman keçirdiyi stresə qalib gələ bilsə, indi müasirlərinin əksəriyyətindən böyük şöhrət sahibi idi. Bunu onun yaradıcılıq istedadı, yaradıcılıq məhsulu göstərir.

N.A.Dobrolyubov bir məqaləsində qeyd edirdi ki, A.S. Puşkinin vaxtsız vəfatına o qədər də kədərlənmək lazım deyil, çünki Puşkin nə yazmalı idisə, hamısını yazmışdır. Bizim istedadlı şairimiz Sərdar Əsəd də hələ gənclik illərini başa çatdırmamış ömrünü başa çatdırsa da, kifayət qədər bədii irs qoyub getmişdir. Sərdar ədəbiyyata 50-ci illərdə gələn Əli Kərim, Qulu Xəlilov, Əlfi Qasımov, Tofiq Mütəllibov, Fikrət Sadıq nəslinin nümayəndələrindən idi. Bu nəsil 60-cılar hərəkatının önündə gedirdi. Sərdar yaradıcılığa başlayanda tədricən ölkədə iqlim mülayimləşir, 30-cu illərdə ölümlə qarşılaşmış yaradıcı insanların müstəqillik arzuları yenidən qanadlanmağa başlayırdı.

Sərdar Əsəd 1952-ci ildən mətbuatda çap olunmağa başlamışdır. O, ədəbiyyata təsadüfi gəlməmişdi. «Hiss edirəm, şeirdə Deməli bir sözüm var» – deyə özündə bu xalqa, insanlara söz demək istəyi və qüdrəti olduğunu görürdü. 40 yaşının tamamında yazdığı «Ömür keçdi yarıdan» şerində mənalı həyat yolunun çətinliklərini qeyd edərək yazırdı:

Hamar düzənlikdə uçan bir külək
Sıldırım dağları qarşıda bilsin!..
İndi yaşadığın bir ömür gərək
Ömrünü sonra da yaşada bilsin!

Sərdar yaxşı təhsil almışdı, sənət, ədəbiyyat məsələlərini gözəl bilirdi, nəzəri cəhətdən hazırlıqlı olub, həqiqi sənəti yüksək qiymətləndirirdi. Çox gənc yaşlarında yaradıcılığa başladığı üçün öz şeirlərinin də hələ özünü tam təmin etmədiyini nəzərə alırdı. 57-ci ildə qələmə aldığı «Kürün söhbəti» lirik poemasında yazırdı:

Mənim şerim hələ xeyli körpədir, –
Hər böyüyün körpə çağı olubdur!

Yaradıcılığının lap erkən çağında – 1954-cü ildə yazdığı «Şairin arzusu» şerini onun poeziya yolunun proqram sənədi saymaq olar. Şairin fikrincə, həqiqi şeir misraları şairin «ürək çırpıntıları»dır. Şeirdə hər bir söz «yerində» olmalı, «ürəkdən gəlməli», oxucunu incitməməli, narazı salmamalıdır. Bu cəhətdən həqiqətin dərki yolunda poeziyanın insana təsiri barədə reallığı aşağıdakı misralarla

daha sərrast ifadə etmişdir:

Yerli-yerində hər söz
Qiymətli bir incidir.
Ürəkdən gəlməyənlər
Ürəkləri incidir.

Yeni şeir həyat həqiqətinin real təsviri ilə, həyatın nəfəsini poeziyaya gətirməklə yarana bilər, sehrkar kimi göz aldadan, baş qatan sözlərlə əylənmək vaxtı deyil, çünki indi həyatın tələbləri tamamilə başqadır:

Söz var, sehrkar kimi
Göz aldadır, baş qatır.
Könül verib sevdiyim
Coşub-daşan həyatın
Tələbləri başqadır!

Bunlar 24 yaşlı gənc şairin estetik düşüncələridir. Yaxşı bilir-di ki, həqiqi şeir üçün can qoymaq, ömrə yoymaq, sərt qayalara, sıldırımlara sinə gərmək lazımdır. «Ömrə çevrilən şeir Bütöv bir ömür istər!» sözləri nəzəri prinsiplər baxımından həqiqəti əks etdirirdi. Bilirdi ki, şerin təsir gücü təsvir obyektinə bələdlik dərəcəsindən asılıdır. Muğana həsr etdiyi şerində oxucuya üz tutaraq yazırdı: «Səvə-səvə oxumaqçın onu sən Mən Muğanı oxuyuram maraqla». Poeziya sənətinə fəlsəfi-estetik baxışı çox erkən, onun hələ «Sərdar Əsəd» deyil, ilk şeirlərini yazdığı «Sərdar Əsədov» imzalı dövründən formalaşmış, o, poeziya aləminə ayıq baxışla gəlmişdi.

«Yer ulduzu» (1974) kitabından aydın olur ki, mərkəzi mətbuatda hələ V.İ.Lenin adına APİ-nin filologiya fakültəsinin birinci kurs tələbəsi olduğu dövrdən - 1952-ci ildən çap olunmağa başlamışdır. «Gənclik illəri» adlı ilk şeir kitabını 1957-ci ildə nəşr etdirə bilmişdir. Bu kitabda və bundan üç il sonra çap etdirdiyi «Səni axtarıram» kitabında hər bir şerin yazılma tarixi vardır. 1960-cı ildə nəşr olunan «Səni axtarıram» kitabında son şeirləri 1957-ci ilə aiddir. Bu, o dövrdə nəşr işinin nə qədər çətin olduğunu, bir kitabın çapı üçün ən azı üç il gözləmək lazım gəldiyini göstərən bir faktdır. 50-ci illərə aid bir sıra şeirlərinin «Yanan memar» (1963), «Cərrah ürəyi» (1965), «Simlərin tufanı» (1971) kitablarına daxil edilməsi göstərir ki, ilk kitabları yazdıqlarını əhatə etməmiş, seçmə şeirlərdən ibarət olmuşdur. Sağlığında bunlarla yanaşı, «Gözəl», «Meşədə qonaqlıq» və başqa şeir, həmçinin Bartodan, Rodaridən tərcümə kitablarını da çap etdirə bilmişdir. Kitabları İ.Soltan, N.Həsənzadə, M.Araz, E.Borçalı, Ə.Salahzadə və başqalarının redaktorluğu ilə çap olunmuşdur. 1977-ci ildə – vəfatından iki il sonra şeir və poemalardan ibarət «Dağları aşdı sellər» kitabı nəşr olunmuşdur. 25 ildən az bir müddətdə yaradıcılıqla məşğul olmuş, Azərbaycan poetik fikrinin inkişafı sahəsində xeyli iş görmüşdür. Arxivi yalnız övladları tərəfindən bu günlərdə açılmış, əsərləri toplanmış, şeirlər, poemalar və nəsrdən ibarət üç cilddə çapa hazırlanmışdır.

Sərdarın mövzular aləmi çox zəngindir. Həyatın yeniliklərini məhəbbətlə qələmə alırdı. İctimai həyatın təsviri Sərdarın şeirlərində ön planda idi. Sevgi də, gəncliyin istək və arzuları da yaradıcılığında geniş yer tuturdu. Xüsusən ilk şeirləri öz gəncliyindən doğan sevgi motivləri ilə zəngin idi. Şeir texnikasına gözəl bələd idi. Lirik və lirik-epik şerin əksər formalarında qələmini sınamışdır. Üsubu orijinal idi. Heç kəsi təqlid etmir, heç kəsin yolu ilə getmirdi. Həqiqi xalq adamı idi. Xalqın arasına getməkdən, vətənin dağlarını, dərələrini, meşələrini, ovlaqlarını, tarixi abidələrini gəzib-dolanmaqdan və təsvir etməkdən zövq alırdı. Zəhmət adamlarını poeziyaya gətirirdi. Vətənin qədimliyi və gözəlliklərini vəsf etməkdən iftixar duyurdu.

Təbiət gözəllikləri ömrü boyu Sərdarı özünə çəkmişdir. Təbiətin çovğununu, boranını, ildırımını, tufanını, yağışını, dumanını, çənini, çiskinini sevirdi. Odur ki bu mövzularda yazdığı şeirləri də ürəkdən gəlirdi. Bu silsilədən «Yaylaqda yağış» şeri təkcə Sərdarın yaradıcılığında deyil, ümumən ədəbiyyatımızda xüsusi qiymətə layiq əsərdir. Şeri oxuduqca özünü az qala ağ yağış altında hiss edirsən: Yağış cığırları islatdı keçdi, Yağış pöhrələri ucaltdı keçdi, Yağış meydanını uzatdı keçdi, Ömrünü bir qədər yubatdı keçdi, Havalar üzünü bozartdı keçdi, Bulud – yanağını islatdı keçdi, Duman çadrasını çox atdı keçdi...

Fikrin obrazlı ifadəsində buludlar çalmasını çaldı, yalmanını dartdı, otlar yaşıl köynəyini yudu və s. tipli metaforik ifadələrin mühüm rolu vardır:

Yenə çalmasını çaldı buludlar,
Yelli yalmanını ha dartdı keçdi.
Yaşıl köynəyini yudu göy otlar,
Ocaq yerlərində soyudu odlar,
Kösövlər gözünü qaraltdı keçdi,
Yağış ocaqları islatdı keçdi.

Təbiətin hüsnünün təsvirinə onlarca şeir həsr etmişdir. Bu şeirlərin bir çoxu nəğmə, mahnı üçün hazır mətndir. Lakin Sərdar özünütəbliğ ilə məşğul olmamışdır. Göy gölə həsr etdiyi şeirləri öz ritmi ilə musiqini də çəkib gətirmə gücünə malikdir:

Yaşıl sahili xoşladı
Bu gələn yazı Göy gölün.
Başladı, gör nə başladı
Söhbəti, sazı Göy gölün.

«Bizim dağlar» şerində «Ana təbiətin qoyduğu xına Durur qayaların daş dırnağında» kimi misralarla təbiət gözəlliklərini dilə gətirən şair sevdiyi dağların ətirli bənövşələri ilə yanaşı, tufanına, boranına, çovğununa da məhəbbət bəsləyir:

Sənin çiçəyini mən çox dərmişəm,
Yolumu azmışam tufanında da.
Gəlsin, gecikməsin – görüş vermişəm,
Sənin çovğununla, boranınla da.

«Kürün söhbəti» lirik poemasında təbiətin təsviri daha təbii və obrazlıdır:

Bağçalar kölgəli, havalar sərin,
Günəşli çöllərə nur ələnibdir.
Açılmış yaxası geniş göylərin,
Üfüqlər dağlara dirsəklənibdir.

Göylərin yaxasının açılması da, üfüqlərin dağlara dirsəklənməsi də şairin orijinal tapıntıları olub, estetik cəhətdən xoş duyğular doğurur.

İnsanların yaratmaq, qurmaq əzmi, yeni texnikanın insan məişətini yüngülləşdirməkdə rolu Sərdarı daha çox maraqlandırır, texniki yeniliklərə aid şeirlər yazırdı. Elektrikin hələ indiki qədər kənd məişətinə girə bilmədiyi bir dövrdə Sərdar elektrik işığının insan məişətində rolundan fərəhlə danışırdı. «Kürün söhbəti» poemasında:

Tərpədib işlədir dəmir çarxları,
Muğanda ot çalır, yük çəkir işıq.
Qırxır sürüləri, qazır arxları,
Dağları düzləyir, yer əkir işıq.

Sərdarın şeirlərində müharibə mövzusu xüsusi yer tutur. O, müharibənin törətdiyi dəhşətləri nifrətlə xatırlayırdı. Özünün uşaqlıq və yeniyetməlik dövrü müharibə illərinə düşmüş, müharibə illərini ağlının hər şeyi mühakimə etməyə başladığı dövrdə yaşamışdı.

*(Davamı 9-cu səhifədə)*

# ŞAİR SƏRDAR ƏSƏD

## “ARALANIB GÖZÜMDƏN FİKRİMDƏ YAŞAYIRSAN”

*(Əvvəli 8-ci səhifədə)*

Xalqın müsibətlərinin şahidi olmuşdu: «Gülüşlər qurudu dildə, ağızda», «Hər gün axıb gələn qara kağızda Nə qədər analı ana ağladı!» «Çalağan kölgəsi yerdə gəzəndə Düşündük: xaç-nişan təyyarələrdir». («Bizim nəsil») «Yanan memar» kitabında faşizmin sənət abidələrinə vurduğu yaraları ürək yanğısı ilə qələmə almışdır:

Bu elə bir yanğın və yanğıdır ki, illər keçsə də, o qədim abidənin alovu çoxdan sönmüş olsa da, memar-əsgər onu unuda bilmir, abidənin məhvi ilə barışa bilmir. Təbii ki, bu cür dərdlər sağalan dərdlərdən deyil:

Uzaq düşən o illər sıra-sıra dayanır,
O qədim abidənin alovu sönmüşsə də,
Memar hələ də yanır,
Memar hələ də yanır!

Müharibənin dəhşətlərini görmüş bu gənclik bir ölkənin deyil, qitələrin, dünyanın dərdlərini yaşayırdılar. Odur ki insanların doğma Yer kürəsinin qoynunda bir ailə kimi yaşadıqlarını deyil, silahla bir-birindən qorunduqlarını ürək ağrısı ilə qələmə alır, silah səsləri əvəzinə, Yer üçün nəğmə səsləri arzulayırdılar:

Sərdar həyatın, insan ömrünün təzadlarını düşünən şair idi. «İki ömür» şerində gəncliyin və qocalığın psixoloji aləmini ustalıqla qarşılaşdırmışdır. Şeir daxili aləmin xarici cizgilərlə həmahəng təsvirindən yaranmışdır. «Birisinin gözlərində nur yanır, Birisinin ağ saçları daranır» deyən şair həyat, əməl meydanına atılan gəncliklə artıq böyük yol keçmiş və gücü xatirələrinə çatan qocalığın təzadlarını əks etdirmişdir:

Ata-ana məhəbbəti, övlad sevgisi Sərdarın şeirlərində ictimai məzmunu ilə seçilir. Övlad atanın yaratdıqlarını qorumalı, əkdiklərini becərməli, dünyaya valideynlərin, uluların gözləri ilə baxmalıdır. Ata məzarını xatırlayaraq dediyi sözlər, əslində, hər bir övladın valideynə borcunu təmsil edir:

(«Həmişəlik yuxu»)

Sərdarın şeirləri ona görə insan duyğu və düşüncələrinə təsir edir, insan duyğularını hərəkətə gətirir ki, məzmunu ilə yanaşı, ifadə tərzi də gözəldir. Azərbaycan dilinin təbiətinə yaxşı bələd olan şair onların üzərində çox işləmiş, şeirlərinin obrazlılıq keyfiyyətlərinə xüsusi diqqət yetirmiş, yeri gəldikcə fikrini xalq hikmətləri gücündə təsirli aforizmlərlə ifadə etmişdir: Mən də o çıraqla yanım sübhəcən, İşıq yanmayırsa, ölübdür demək! («Söndürmə») Ayıq xoruz öz vaxtında banlayar, Səs eşidib banlamağa nə var ki! («Xoruz banı») Qadınsız Yer kürəsi bir bağ xəzəlliyidir, Onsuz stol, iş yeri Döyünməsi azalmış xəstə ürək kimidir. («Onsuz») İnsan düşüncəsinin Deyirəm Şer adlı Nə nadir övladı var! («Şairin arzusu») Sənətkar qocalar, sənət qocalmaz. («Səni»). Və ya:

(«Etibar»)

Bir filoloq kimi, sözün məcazilik imkanlarına yaxşı bələd idi, söz seçməyi, söz üzərində işləməyi, «sözün üstə əsməyi» bacaran sənətkar idi. Orijinal təşbih və epitetlər yaratmışdır. Bizim klassik ədəbiyyata, müasirlərinin dilinə yaxşı bələd olduğundan təkrara yol verməmək üçün daim yeni tapıntılara meyil etmişdir: Gecənin saçlarına Yaşı ötmüş adam tək Yavaş-yavaş düşür dən. («İki işıq») Üstündə külək əsir, Mən söz üstə əsən tək. («Günəş şəhəri») Çöküb qəlbi dağlar təpələr kimi, Qayalar dağılıb qəlpələr kimi. («Dağların dağı») Gördü ki, bir qaya qalxıb at kimi, Tökür dırnağından torpağı, daşı. («Təpə»dən yıxılan») Qızaran dan yeri də Qırmızı yaylığıyla Silib atır gecənin Qalan qaranlığını. («Günəş şəhəri») Dağların enməsi hələ dağ deyil («Dağların dağı») və s.

Bu misralarda tutarlı təşbihlər də var, epitet, metafora və frazemlər də. Bu cür məcazilik imkanları hər bir şerin yaşarı əlamətlərindəndir.

Sərdar gözəl qoşma və gəraylılar müəllifidir. Qədim aşıq poeziyasından gələn bir sıra mövzu-obrazlar – bənövşə, kəklik, çəmən, çiçək, dağlar və s. haqqında gözəl şeirləri var. Bunlar yeni duyğu və düşüncə ilə yaranmış obrazlar olmaqla, ifadə tərzindəki yeniliklərlə də diqqəti cəlb edir. Bu şeirlərdə şairin müraciət obyektləri ilə söhbəti daha səmimi və konkretdir:

(«Kəklik»)

(«Diri dağı»)

Sərdarın «Görüş» şeri gözəl bir təcnis nümunəsidir. Bu şeir onun bir şair kimi xalq şerindən xüsusi ilham aldığını, ustalıqla cinas qafiyələr yaratma qüdrətinə malik olduğunu göstərir:

Yaxud «Yaxşıdır» şerinin aşağıdakı bəndinə diqqət yetirək:

Demək, Sərdar xalq aşıqlarının, haqq aşıqlarının söz demə mənzilinə yüksəlmiş bir sənətkar olmuşdur. Qoşa hörükləri ağ papaq altında olan cavan və gözəl tibb bacısı haqqında: «O, iynə vuranda yaşlılar: İncidir, deyir, Cavanlar: Özün də, iynən də incidir, deyir» – misralarında inci sözündən həm fel, həm isim kimi istifadə etmişdir. Yığcam, ciddi məsələlərə toxunan bu cür şeirləri Sərdar omo-formların köməyi ilə ustalıqla yarada bilirdi:

Sərdarın şirin yumoru vardı. Şeirlərində yumora az meyil etsə də, yumordan istifadə imkanlarının zəngin olduğunu bilirdim. Ev işlərinə, ailə qayğılarına laqeyd qadınların tənqidinə həsr etdiyi «Kişi gələndə» şeri hətta



müəyyən dərəcə aydın istehza çalarına da malikdir:

Həqiqi məhəbbətin tərənnümü, sevgidə ilk anlar baş verən tərəddüdlər Sərdarın qələmi ilə real cizgilərlə ifadə olunmuşdur. Hətta yeri gəldikdə elmi terminologiyadan şeir dilində istedadla istifadə edərək sevgilinin tərəddüdlərini təbii və orijinal şəkildə çatdıra bilmişdir:

Dediyimiz kimi, Sərdar Ağdam Müəllimlər İnstitutunun dil və ədəbiyyat fakültəsini fərqlənmə diplomu ilə bitirib, V.İ.Lenin adına APİ-nin eyniadlı fakültəsini də qurtarmışdı. Yaxşı oxumuş, yaxşı filoloji təhsil almışdı. Dilimizin incəliklərinə dərindən bələd idi. Sevgilinin feil zamanlarını – görüş vaxtlarını tez-tez dəyişməsi, gözlərindəki tərəddüdlər (müzare zamanın qrammatik mənasındakı olar-olmaz gümanı), təsdiq və inkar felləri nizamsız işlətməsi qrammatik məfhumlardan uğurla istifadənin tipik nümunəsi sayıla bilər. Sözə qənaət hissi onun yaradıcılığında mühüm yer tuturdu.

Onu tarixdən çox, müasir həyat, yaşadığı dövrün texniki tərəqqisi, zəhmət adamları, onların həyat eşqi maraqlandırırdı. Bir də təbiət – Azərbaycan təbiəti, Azərbaycanın gur şəlalələri, sinəsi yaşıl örtüyə bürünmüş dağları, meşələri, dərələri, çayları, bulaqları, ucsuz-bucaqsız tarlaları. Ata, ana, valideyn istəyi, ustad, müəllim tərbiyəsi, sənətə, sənətkara münasibət, müharibələrin dağıdıcı qüvvəsi, insanların yaradıcılıq əzmi Sərdar Əsəd mövzularının nə qədər rəngarəng olduğunu göstərir.

Sərdar həyat eşqi yüksək olan bir insan idi. Zəhmət adamlarından, onların həyatından bəhs edən oçerklər yazırdı. Maraqla oxunan «Cərrah ürəyi», «Ağ saçlı Qafqaz», «Xatirə yarpaqları», «Qız anası», «Yer ulduzu» kimi poemaları vardır. Az vaxt ərzində “Gənclik illəri”, “Səni axtarıram”, “Yanan memar“, “Cərrah ürəyi“, “Gözəl”, “Meşədə qonaqlıq“, “Simlərin tufanı” kimi şeir kitabları çap etdirmişdi. Hazırcavab bir şəxsiyyət idi.

* * *

Qısa ömrü müddətində Sərdar irilixırdalı 20-dən artıq poema yazmışdır. "Topçağa su gəlir", «Günəş şəhəri», «Cərrah ürəyi», «Ağ saçlı Qafqaz», «Əbədi nəğmə», "Süvari xatirələr", "Yer ulduzu", «Könül evi», «Xatirə yarpaqları», «Qız anası». «Kürün söhbəti», «Mavi gözlər», "Şimşək", "Qardaşlar" və s. poemaları ilə o, ədəbiyyatımızda xüsusi cığır açmışdır.

22 yaşında qələmə aldığı "Topçağa su gəlir" poeması şairin ilk poeması idi. Poema S.Vurğunun "Muğan" və "Aygün" poemaları ruhunda yazılmışdır. S.Vurğunun təhkiyə və şeir üslubunun bir sıra xüsusiyyətləri də poemada görünməkdədir. Topçaq düzü şairin doğulduğu Soltanlı kəndinin günbatan tərəfində yerləşmiş böyük bir düzdür. Vaxtilə şəhər yeri olmuş, hansı fəlakətin nəticəsində isə dağılmış, daşqın nəticəsində sonralar o yerlər geniş bir ovalığa çrvrilmişfir. 60-cı illərə qədər kənd camaatı o düzdən yalnız otlaq kimi istifadə edirdi, kəndin mal, qoyun sürülərinin, at ilxılarının otlaq yeri idi. Yalnız 60-cı illərdə bu əraziyə su çəkildi, burada geniş üzüm plantasiyaları meydana gəldi. Poema göstərir ki, Sərdar hələ çox gənc ikən nə üçün bu yerlərin əkin-biçin tarlalarına çevrilmədiyi barədə düşünmüş, başlıca səbəbin su ilə bağlı olduğunu nəzərə alaraq belə bir mövzu üzərində işləmişdir. Poemanın bütün variantlarında, hər şeydən əvvəl, əsas problem sudur. Ona görə də bu sahələri bol su ilə təmin etmək, o yerləri güclü təsərrüfat mənbəyinə çevirmək üçün Araz çayından kanal çəkilməsini əsas problem kimi irəli sürmüşdür.

Əslində, Arazdan bu yerlərə çəkilmiş çox qədim bir arx var idi. Bu arx Hasanlı, Maşanlı, Alıkeyxalı kəndlərinin altından keçərək Soltanlı tarlalarının şimal tərəfindən gündoğana tərəf buruları, Əmirvarlı, Sarıcallı, Şıxalıağalı, Şükürbəyli kəndlərinə qədər uzanır, onların tarlalarını da su ilə təmin edirdi. Bu arxa Bəydilli arxı və ya Soltanlının alt tərəfindən qanrıldığı, buruldugu üçün Qanırma arxı deyilirdi. Lakin Sərdarın və elə mənim də göz açdığımız dövrdə arx çox dolmuş və son dərəcə dayazlaşmışdı. Çox az su götürürdü. Odur ki 2-ci Dünya müharibəsindən az sonra həmin istiqamətdə yeni kanal çəkilməsi planlaşdırıldı. Kəndlərin kişiləri əksəriyyət etibarilə müharibədə həlak olmuşdu. Odur ki bu kanalı gözümüz önündə qadınlar qazmışlar. "Muğan" poemasında olduğu kimi, Sərdar da ekskavatorların nərilitisindən, gurultusundan danışır. Bu, gənc şairin arzusu idi. Hələ o dövrdə kənddə ekskvator görünmürdü. Əslində, kanal kənd qadınlarının gücü ilə qazılmışdır. Qadınlara ölçü ilə pay verirdilər, ay işığında olsa da, o payı qazıb qurtarmalı idilər. Bu işlərin başında Soltanlı ziyalılarından Zülfüqar Həsənov